## MƏTBUAT ÜÇÜN AÇIQLAMA

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələrinin ATİB üzvləri ilə görüşü keçirildi**

**No: 09/02/81**
**02.02.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) ofisində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Miqrasiya İdarəsinin rəisi Rauf Tağıyev, Dövlət Əmək Müfəttişliyinin rəis müavini Məmməd Qazıyev, Pensiya Siyasəti şöbəsinin müdir müavini Rüfət Mürşüdov və Dövlət Miqrasiya Xidmətinin hüquq şöbəsinin məsləhətçisi Cəmil Hüseynov ilə ATİB üzvlərinin görüşü keçirildi. Görüşün keçirilməsində məqsəd Azərbaycan Respublikasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin «Sosial İnkişaf» layihəsi, əmək qanunvericiliyi, əcnəbi vətəndaşların Azərbaycanda çalışmaları üçün zəruri olan prosedur, işəgötürən və işçi hüquqları, dövlətin pensiya siyasəti barədə və s. barədə iş adamlarını məlumatlandırmaq idi.

R.Tağıyev əmək miqrasiyası haqqında qanunun 1999-cu ildə qəbul edildiyini söyləyərək onu da bildirdi ki, o vaxta qədər əmək miqrasiyası tənzimlənmirdi: “Həmən vaxta qədər Azərbaycana gələn çox deyildi, hərçənd gedənlərimiz çox idi. Ölkədən gedən vətəndaşların hüquqlarının tənzimlənməsi ilə bağlı gedənlərin aldadılması hallarının qarşısının alınması üçün Nazirlər Kabinetinin qərarı ilə müvafiq qanunverici akt təsdiqləndi. Bu sənəd, başqa ölkələrdə Azərbaycan vətəndaşlarının işə düzəlməsinə vasitəçilik fəaliyyətinin tənzimlənməsi ilə bağlı idi. ”

R.Tağıyev xarici ölkə vətəndaşlarının şirkətlərdə işə cəlb olunması mexanizmi məsələsinə münasibət bildirdi: “1999-cu ildə qəbul edilmiş qanunda olan bütün norma və mexanizmlər bu gün də qüvvədədir. Amma işəgötürənlər bu qaydalara əməl etmirdilər. Bu qanuna əməl etməzsə nəzərdə tutulan cəza aşağıdakı kimi idi: 1. qanunun 8-ci maddəsinin axırıncı bəndinə görə, başqa ölkə vətəndaşları qeyri-qanuni işə cəlb edilərsə, onda həmən cəlb olunmuş əcnəbi Azərbaycandan deportasiya olunur və deportasiya ilə bağlı xərclər işəgötürən tərəfindən ödənilir. Buna baxmayaraq, bu məsələ ilə bağlı bu günə qədər bir nəfər də Azərbaycandan deportasiya olunmamışdır.” R.Tağıyev həmçinin, bir qisim işəgötürənlərin bu qanun haqqında məlumatsız olduqlarını bildirdi: “Bu cür problemlər yalnız işəgötürənlərin günahı deyildi, qanunvericilikdəki boşluqlar da şərait yaradırdı ki, işəgötürənlər əlavə qayğı dalınca getməsinlər. Işəgötürən işə cəlb etdiyi əcnəbi üçün icazə almayacağı təqdirdə onu heç bir böyük cəza gözləmirdi. İşəgötürən əlavə sənəd düzəltmək, müəyyən yerlərə getmək kimi qayğılardan özünü azad edirdi və buna görə də onu narahat edən yox idi.”

R.Tağıyev 7 dekabr 2007-ci idə qəbul olunmuş və 20 dekabrda qüvvəyə minmiş inzibati xətalar məcəlləsinə edilmiş dəyişiklik barədə də məlumat verdi: “Əgər fərdi icazə alınmadan əcnəbi işə cəlb olunarsa, işəgötürən 35 min manat cərimə oluna bilər. Əldə etdiyimiz nəticələr onu deməyə əsas verir ki, qanunvericilikdə qəbul olunmuş bu qərar çox düzgün qərardır. Belə ki, 2007-ci ildə 1700 nəfərə iş icazəsi verilmişdi. Amma 2008-ci ilin yalnız yanvar-fevral aylarında 1600 nəfərə iş icazəsi verilmişdi. Ümumilikdə, 2008-ci ildə 2007-ci ildə verilmiş iş icazələrdən 4,2 dəfə çox iş icazəsi verilmişdi.”

M.Qazıyev həmçinin əmək müqaviləsinin bağlanması məsələsinə də münasibət bildirdi: “Əmək məcəlləsinin 7-ci maddəsində nəzərdə tutulur ki, əmək münasibətləri yalnız əmək müqaviləsinin yazılı surətdə bağlandıqda həyata keçirilir. Əmək müqaviləsi bağlayan hər iki tərəfin hüquq və vəzifələri müəyyənləşdirilir. Müqavilə tərəflər arasında imzalandıqdan sonra qüvvəyə minir. Burada olan bütün müddəalar Dövlət Əmək Müfəttişliyinin nəzarətinə keçir. Əmək prosesi, əməyin ödənilməsi ilə bağlı və ya digər problemlər yaranarsa, Dövlət Əmək Müfəttişliyi bunu araşdırır.”

M.Qazıyev iş zamanı bədbəxt hadisə baş verdiyi halda, məsələnin Dövlət Əmək Müfəttişliyi tərəfindən araşdırıldığını bildirdi: “Araşdırmadan sonra müvafiq qaydada akt tərtib olunur, təhqiqat materialları tərtib olunur və əgər xəsarət alma və ya həlak olma hadisəsi istehsalatla əlaqəli olursa, onda istehsalat zədəsi adlı akt verilir. Bu akt gələcəkdə ölənin ailəsinə müavinət alma hüququ verir. Xəsarət alanın tibbi sosial ekspert komissiyasının müəyyənləşdirdiyi iş, əmək qabiliyyətini itirmə faizi müəyyənləşdirilir və ona uyğun müavinət təyin olunur.” M.Qazıyev əmək müqaviləsi bağlayan şəxsin vergi ödəyicisi olduğu üçün onun bütün sosial problemləri və sosial məsələləri dövlət tərəfindən nizamlandığı barədə də məlumat verdi.

M.Qazıyev “Normativ sənədlər toplusu” adlı kitab haqqında da məlumat verdi və qeyd etdi ki, kitabda bütün bədbəxt hadisələrin tədqiqatı, iş yerlərinin attestasiyasının aparılması, peşə risklərinin qiymətləndirilməsi və s. ilə bağlı bütün normativ sənədlər öz əksini tapmışdır.

R.Mürşüdov ölkəmizdə aparılan pensiya islahatından söz açaraq bildirdi ki, 7 fevral 2006-cı ildə 2 mühüm qanun qəbul olunmuşdur - 1. Əmək pensiyaları haqqında, 2. Sosial müavinətlər haqqında qanun: ”Pensiya təminatı məsələləri bütövlükdə “Əmək pensiyaları haqqında qanun”la tənzimlənir. Bu qanuna əsasən pensiya təminatının 3 növü müəyyənləşdirilmişdir: yaşa görə, əlilliyə görə, ailə başçısını itirməyə görə.”

R.Mürşüdov pensiya sisteminin də iki hissəyə bölündüyünü qeyd etdi - 1. pensiya hüququnun müəyyən edilməsi; 2. pensiyaların hesablanması, təyin olunması: “Pensiya hüququ müəyyən edilərkən ən həlledici amilin vətəndaşın qanunla müəyyən edilmiş sığorta stajına malik olmasıdır. Sığorta stajı hesablanarkən, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi və bununla əlaqədar olaraq sığorta haqlarının ödənilməsi müddətləri nəzərə alınır.”

R.Mürşüdov hazırki qanunvericiliyə əsasən əcnəbilərin də dövlət sosial sığorta haqlarının ödənilməsi məsuliyyəti məsələsinə toxundu: “Əcnəbilər hansı ölkənin vətəndaşı olmalarından asılı olmayaraq dövlət sosial sığorta haqlarını ödəməlidirlər. Gələcəkdə isə onların AR vətəndaşları ilə bərabər AR Dövlət Sosial Müdafiə Fondundan pensiya almaq hüquqları yaranır.”

Daha sonra görüş iştirakçıların suallarını cavablandırmaqla davam etdirildi.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**